# Göytəpə Arxeoloji Parkının yaradılması prosesi necə gedir...

**Azərbaycanda ilk arxeoloji park olacaq Göytəpə Arxeoloji Parkının yaradılması hələ tam olaraq reallaşmayıb. Bu parkın yaradılması, burada muzeyin, Neolit kəndinin, eləcə də digər təsisatların formalaşdırılması ölkəmizə turist axınının güclənməsinə səbəb ola biləcək amildir.**



## *Fərhad Quliyev: "AMEA yanında Arxeoloji Parkın yaradılması işinin sürətləndirilməsi məsələsi AMEA-nın yeni rəhbərliyinin tam diqqətindədir"*

Məlumat üçün bildirək ki, Prezident İlham Əliyevin 2012-ci il 18 aprel tarixli Sərəncamına əsasən, Azərbaycanda ilk dəfə Arxeoloji Park yaradılmalı olduğu halda, 7 il keçməsinə baxmayaraq, sənəddə nəzərdə tutulan arxeoloji park hələ də yaradılmayıb.

Onu da vurğulayaq ki, Azərbaycanda son illər həyata keçirilən silsilə arxeoloji tədqiqat işləri ölkəmizdə bir neçə arxeoloji park yaradılmalı olduğunu deməyə əsas verir.

Haqqında danışdığımız Tovuz rayonu ərazisində yerləşən Göytəpə arxeoloji kompleksi Azərbaycanın ən qədim maddi mədəniyyət nümunələrindəndir. Əlbəttə, bu abidə tariximizin öyrənilməsi və turizmin inkişafı baxımından böyük əhəmiyyətə malikdir.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, Tovuz arxeoloji ekspedisiyasının rəhbəri Fərhad Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) yanında Göytəpə Arxeoloji Parkının yaradılması gündəmdədir. Hazırda sözügedən sahədə elə də diqqətçəkən işin görülmədiyini deyən F.Quliyevin sözlərinə görə, amma parkın yaradılması işinin sürətləndirilməsi akademiyanın yeni rəhbərliyinin diqqət mərkəzindədir.

O qeyd etdi ki, 2008-ci ildə yerli və xarici mütəxəssislərin iştirakı ilə başlayan arxeoloji qazıntılar zamanı Göytəpədə eramızdan əvvəl, VII-VI minilliyə aid çox yaxşı qalmış Neolit dövrü yaşayış məskəni və bir çox maddi mədəniyyət nümunələri aşkarlanıb. 2012-ci ilin aprelində ölkə başçısı İlham Əliyevin qərb bölgəsinə etdiyi səfər zamanı Göytəpə neolit dövrü abidəsinin ilkin nəticələri ilə tanış olduğunu və AMEA yanında Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı sərəncam imzaladığını deyən F.Quliyevin sözlərinə görə, Arxeoloji Parkın indiyədək yaradılmamasının bir neçə subyektiv səbəbi var, amma prosesin tezliklə başlayacağı istisna edilmir. "Sizinlə keçən söhbətimizdə arxeoloji parkın yaradılmasında gecikmənin bir sıra subyektiv səbəbinin olduğunu qeyd etmişdim. Bilirsiniz ki, layihə mürəkkəb xarakterli idi. Yəni çoxları park sözünün mahiyyətini dərk etmirdi. Lakin artıq arxeoloji parkın salınması ilə əlaqədar xarici mütəxəssislərlə birgə layihə hazırlanıb və təqdimatı keçirilib. Gələn ilin yayınadək arxeoloji parkın önəmli hissəsinin hazır olması nəzərdə tutulur. Arxeoloji park, sadəcə, bir abidənin üstünün örtülməsi deyil. Burada əsasən abidənin tanıdılması və ictimailəşdirilməsi nəzərdə tutulur. Göytəpə arxeoloji parkı elə formada hazırlanacaq ki, buraya gələnlər özünü Neolit dövrünün kəndində təsəvvür edə bilsin. İnsanlar əcdadlarının 8 min il əvvəl hansı formada yaşadıqlarını əyani olaraq görəcəklər. Burada bir neolit mühiti yaradılacaq. Eyni zamanda, muzey və uşaqların arxeologiyaya marağını artırmaq məqsədilə əyləncəli arxeoloji işlər təşkil olunacaq".

## *"Hesab edirəm ki, layihədə heç bir böyükmiqyaslı dəyişiklik edilməyəcək"*

Parkın layihəsində hər hansı bir böyük dəyişikliyin edilib-edilməyəcəyinə gəlincə, F.Quliyev bildirdi ki, kiçik korrektələri və müəyyən xırda əlavələri, təklifləri nəzərə almasaq, layihədə heç bir böyük dəyişiklik gözlənilmir: "Bilirsiniz ki, bu layihəni hazırlamışıq, hesab edirəm ki, layihədə heç bir böyükmiqyaslı dəyişiklik edilməyəcək. AMEA yanında Arxeoloji Parkın yaradılması işinin sürətləndirilməsi məsələsi AMEA-nın yeni rəhbərliyinin tam diqqətindədir və bildiyim qədər, ayın sonunda məsələ yenidən müzakirə ediləcək. Ümid edirəm ki, gələn ilin aprel ayında proses başlanacaq. Hər halda, buna ümidimiz var" - deyə bildirən F.Quliyevin sözlərinə görə, Göytəpə Arxeoloji Parkında yarımçıq qalan işlərin davam etdirilməsi üçün millət vəkili Qənirə Paşayeva Prezident İlham Əliyevə müraciət ünvanlayıb. F.Quliyevin dediyinə görə, Tovuz Diyarşünaslıq Muzeyi yaradılıb və həmin muzeyin ekspozisiyasında Göytəpə arxeoloji abidəsindən aşkarlanan eksponatlar sərgilənəcək. Ekspedisiya rəhbərinin bildirdiyinə görə, bu muzeydə, həmçinin, Tovuz ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan digər eksponatlar da yer alacaq.

F.Quliyev hesab edir ki, yaxın bir neçə ay ərzində Göytəpə Arxeoloji Parkının yaradılması prosesinin həyata keçirilməsinin şahidi olacağıq.

***İradə SARIYEVA***

Bakı xəbər.-2019.- 3 dekabr.- S.15.